**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASI**

**Əlyazma hüququnda**

**ÜNAL FUNDA SEVILAY ATTILA TANJU QIZI**

# MUSİQİNİN İNSANA MÜALİCƏVİ TƏSİRİ BAXIMINDAN TARİXİ ARAŞDIRMALARIN TƏDQİQİ

**6213.01 – Musiqi sənəti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

*Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.*

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Gülnaz Abutalıb qızı Abdullazadə**<br>Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor |
| **Rəsmi opponentlər:** | **Cəmilə İsmayıl qızı Həsənova**<br>sənətşünaslıq üzrə elmlər doktoru, dosent |
| | **Emel Ramiz qızı Şenocak**<br>sənətşünaslıq üzrə fəlsəfə doktoru |
| **Aparıcı təşkilat:** | Azərbaycan Milli Konservatoriyasının «Milli musiqinin tarixi və nəzəriyyəsi» kafedrası. |

Müdafiə «_15___» dekabr 2014-cü ildə saat _14$^{00}$_____
Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.
Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» noyabr 2014-cü ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru **Məmmədova H.V.**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı**: Musiqinin insana və ümumiyyətlə canlı mühitə böyük təsiri var və bu fenomenin vasitəsilə ətraf mühitdə olan dəyişikliklər hələ qədim ibtidai dövrdən bugunki günə qədər izlənir və onun təsir gücünü müxtəlif hallarla müşahidə etmək mümkündür. Musiqinin belə bir möcüzəvi gücünə malik olması hələ ilk dəfə Şərq dünyasında fövqəltəbii ünsürlərin vasitəsilə şamanlar, bakşılar və cadugər-həkimlər tərəfindən geniş şəkildə insan sağlamlığına yönəldilərək istifadə edilirdi. Tarixi faktlara söykənərək bu vasitədən istifadə olunması həm antik dövrə təsadüf edir, həm də qədim türklərin kompleks şəkildə mövcud olan müalicə mədəniyyətinə çevrilir.

Tədqiq olunan bu araşdırmada tarixi mənzərəyə nəzər yetirərək musiqinin insana müalicəvi təsiri baxımından Şərq dünyasının qədim Sibir tayfalarından Orta Asiyaya qədər coğrafi arealı uzanır, Türkiyə və Azərbaycan mədəniyyətində mənəvi dəyərlərini taparaq inkişaf və çiçəklənmə dövrünü nümayiş etdirir.

Avropa ölkələrində musiqinin insana təsiri anlayışı yalnız xristian dini baxımından öyrənilib və xüsusi nəzəri çərçivə qaydalarından çıxmayaraq dini xadimlər tərəfindən ciddi işlənilirdi. Burada yalnız bir məqsəd qoyulurdu: insanın qəlbində, ürəyində musiqi vasitəsilə ancaq dini hisslər oyanmalıydı. Burada müalicəvi xarakterdən söz getmirdi və digər hallarda bəzi musiqi parçalarına yasaq qoyulurdu. Ruhi xəstə olan insanları musiqi ilə müalicə etmək mümkün olurdusa onları sadəcə oda atıb yandırırdılar.

Beləliklə, bu araşdırmanın vasitəsilə iki müxtəlif səpkili münasibət aşkarlanır. Belə ki, Şərq dünyası musiqinin müalicəvi imkanlarını hərtərəfli və dərin şəkildə öyrənib tətbiq edərək müsiqi sənətinin təsir qüvvəsinin insanların gündəlik həyatına daxil olması və qüvvə vasitəsilə özünə şəfa tapması, digər bir istiqamət isə Qərb aləmində musiqinin müalicəvi gücünü dini yasaqlarla məhdudlaşması eyni zamanda XIX-XX əsrlərdən başlayaraq Şərqin bu ənənəsini Qərb yenidən kəşf edərək öz nəzəriyyəsini müasir texniki imkanlardan istifadə nəticəsində artıq mükəmməl şəkildə onunla əməkdaşlığa qoşuldu.

Musiqi çağları əvvəl insanların səslə, görünüşlə, təbiətlə, digər varlıqlarla əlaqələrində bir psixo-bioloji ehtiyacdan doğulmuşdur. İfadə olaraq baxıldığında bütün psixo-ictimai hadisələri, insan həyatında var olan həyəcanları, məlumat duyğu və düşüncələri, təbiətdə mövcudluğu olanların görünüşlərini əks etdirir.

Ümumiyyətlə bəşəriyyət tarixi boyunca musiqi cəmiyyətdə qəbul olunan bir fenomen, musiqiçi də hörmət və dəstəklənən bir fərdi insanlar olaraq tanınır. İbtidai qəbilə həyatında cadugər və şaman, özündən çəkinilən lakin hörmət edilən qəbilə üzvüdür. O, qəbilənin mənəvi həyatında inanc formalarındakı əskiklikləri tamamlayan, qorxu və ümidsizlik hallarının üzərindən götürülməsini təmin edən bir güc simvolu olaraq qəbul edilir. İlk ruhi həkim modelinin ortaya çıxışı da bu kəslərdir deyə bilərik.

Zamanla müasir həkimliyin ortaya çıxması, xəstəlik diaqnoz və müalicə metodlarının elmi təməllərə oturması və müalicə metodlarının daha diqqətə çarpanlıq qazanması yavaş-yavaş cadugər-şaman həkimlərini aradan silmişdir. Lakin onların istifadə etdikləri üsullar tamamilə tərk edilməmiş, əksinə müasir tibblə-xüsusilə musiqilə iç-içə bir əhəmiyyət və məna qazanaraq müalicədə istifadə edilir və hələ də də istifadə edilməkdədir.

Bu işdə musiqi ilə ruhi müalicənin tarixi seyri, şərq və qərbdəki keçmişdəki istifadə şəkilləri və günümüzdəki müasir tibbdəki yeri, hələ də edilən musiqi terapiya işləri ələ alınmışdır.

Müasir dövrdə Qərb ölkələrində, o cümlədən Türkiyə və Azərbaycanda musiqi ilə müalicə metodları hansı ki, müxtəlif repertuar yığımına bağlıdır bu musiqi əsərlərinin insanın hansı ruhi və fiziki orqanlarına necə təsir göstərməsi müxtəlif elmi baxışlara söykənir. Araşdırmanın elmi tədqiqi yollarını çox geniş rakursda nümayiş etdirir. Fövqəltəbii gücdən – musiqiyə, musiqinin təsirindən – insan ruhuna, musiqidən doğulan şəfa – tibbə yönəlir. Bu son nöqtədə musiqiyə baxış yeni bir vüsət alır. Ümumbəşəri məna daşıyan belə bir fenomenin araşdırılması elmi axtarışlar baxımından müasir dövrdə böyük aktuallıq kəsb edir. Musiqi tədqiqinin genişlənən imkanlarından xəbər verir. Müxtəlif sahələrin inteqrasiya prosesinə qoşulmasında musiqi elmin yeni multikulturalizm mərhələsinin araşdırılmasını zərurət yaradır.

**Mövzunun işlənmə dərəcəsi**: Musiqinin şəfa gücünə həsr olunan elmi araşdırmalar öz küllüyəti ilə daha çox qədim və orta əsrlərə təsadüf edir. Bununla yanaşı müasir dövrdə yeni vüsət almış bu nəzəriyyələr praktiki həlli nəticəsində öz elmi qətiyyətlərini müxtəlif səpkili əsərlərdə əks etdirmişlər.

Türkiyədə musiqi ilə müalicə mövzusu müxtəlif baxımdan türk tədqiqatçıları tərəfindən araşdırılmışdır. Bu sahədə Çoban A., Güvenç Rahmi O., Altinölçek H., Casimire C., Çobanoğlu E. , Dinçer N., Gençel Ö., Grebene Dr.Bekir, Örter Hasan C., Samuk F., Terzioğlu A., Yiğitbaş Dr.M. Sadık, Azərbaycanda bu sahədə Ürməvi S., Şirvani F., Səfərova Z.,

Abdullazadə G., Təhməzov R. Bir çox xarici ədəbiyyatda bu mövzu işıqlandırılmışdır: Alvin J., Berhreas G., Cassity D.M., Daubrresse M., El-Saaded, Okaza S., Priestley M., Vasconcelo M.

Tədqiqat işində eyni zamanda da geniş şəkildə internet saytlardan istifadə olunmuşdur.

**Dissertasiyanın elmi yeniliyi:** Dissertasiyada Qərb və Şərqin musiqilə müalicə üsullarından istifadə yolları, fərqli və oxşar yanaşma, bütün bu rakursların ortaq nöqtədə uzlaşması ilk dəfə tədqiq olunur. Eləcə də ilk dəfə olaraq tədqiqat işində əsaslı elmi-praktiki və nəzəri şəkildə musiqinin insana müalicəvi təsiri haqqında tarixi faktlara əsaslanaraq geniş bilgi və tətbiqi təcrübəyə istinad edərək qədim və müasir dövrün bu üsulla müalicənin musiqi vasitəsilə effektiv nəticələrini üzə çıxarmaq araşdırmanın elmi yeniliyini təşkil edir.

-Musiqinin müalicəvi imkanlarına tarixi baxış;
-Musiqinin tədavi gücünin qədim və müasir vdövrdə atdığı addımlar;
-İnsan sağlamlığına muğam nümunələrinin müalicəvi təsiri;
-Dünya praktikasında musiqi terapiya nümunələrinin nəzəri çalışmaları;
-Türkiyədə musiqi terapiyasının tətbiqi təcrübəsi;
-Azərbaycanda musiqi terapiyasının tətbiqi təcrübəsi;

Bütün bu qeyd olunanlar tədqiqat işində yer alan anket və sorğular nəticəsində öz təsdiqini taparaq bir daha musiqinin insanın gündəlik həyatında xüsusi yeri olduğunu vurğulayır. Bu xüsusiyyət onun çox istiqamətli funksiyalarından qaynaqlanır. Bu funksiyalar, fərdi, ictimai, mədəni, iqtisadi və öyrədici funksiyalardır. Musiqi eyni zamanda davranış dəyişiklikləri ortaya çıxarmaq üçün, kömək ideal bir vasitə olaraq görülür. Musiqi sözsüz olduğundan ünsiyyət və qarşılıqlı təsiri təmin etmək üçün təbii bir mühit meydana gətirir. Onun təbiətində olan nizam və quruluş, fərdi anlaşıqlıq və bir güvən duyğusu verir.

**Dissertasiyanın məqsədi və vəzifələri:** Elmi tədqiqatın mərkəzində duran əsas **məqsəd** musiqinin insan üzərində müalicəvi gücünün müxtəlif səpkidə təsiri və bu təsir yollarının həyata keçirilməsinin xüsusi şərtlərlə icrası aşağıdakı **vəzifə** daşıyıcı komponentlərlə özünü büruzə verir:

-Tarixi və coğrafi arealda musiqi tədavi yolları;
-Musiqinin ibtidai dövrdəki fövqəltəbii təsiri;
-Şamanlıqdan qədim Türklərə qədər musiqinin müalicəvi əhəmiyyəti;
-Orta əsrlərdə İslam mədəniyyətində musiqinin insan sağlamlığına təsiri;
-Müxtəlif muğam nümunələrinin insana təsiri.
-İnsan səsinin və musiqi alətlərinin müalicəvi təsiri;

-Musiqinin müalicəvi gücünün dünya təcrübəsində rolu və əhəmiyyəti;
-Musiqinin müalicəvi gücünün tətbiqdən-tədqiqə keçdiyi mərhələ.

Musiqi təcrübələri, fərqli səviyyələrdə iştirak imkanı təmin etdiyindən, özünə güvənin inkişafına kömək edə bilər. Bu səbəblə musiqi çox erkən yaşlardan etibarən təhsilin əhəmiyyətli bir elementinə çevrilmişdir.

**Metod və metodoloji əsası:** Aparılan araşdırma elmin müxtəlif metodlarından söykənərək ilk növbədə tarixi metoddan başlayaraq öz tətbiqi və tədqiqi arealını genişləndirib müxtəlif kateqoriyalara istinad edir. Bu kateqoriyalar Şərq-Qərb təcrübə ənənəsində gözə çarpan müqayisəli və oxşar şəkildə üzə çıxmaqla nəzəri metoda yönəlir. Nəzəri metod öz çıxış nöqtəsini tətbiqi metoddan başlayaraq tədbiqi metoda qədər uzanır.

Bu baxımdan Azərbaycan alimlərindən Ürməvi S., Şirvani F., Ü.Hacıbəyli, R.Zöhrabov, Səfərova Z., Abdullazadə G., Təhməzov R.,Türk alimlərindən Çoban A., Güvenç Rahmi O., Altinölçek H., Casimire C., Çobanoğlu E. , Dinçer N., Gençel Ö., Grebene Dr.Bekir, Örter Hasan C., Samuk F., Terzioğlu A., Yiğitbaş Dr.M. Sadık, xarici alimlərdən isə Alvin J., Berhreas G., Cassity D.M., Daubrresse M., El-Saaded, Okaza S., Priestley M., Vasconcelo M. və b. tədqiqatları araşdırmanın metodoloji bazasına çevrilmişdir.

**Tədqiqatın obyektini:** dünya tarixində musiqi sənətinin insan ruhuna və sağlamlığına tədavi gücü, **predmetini** isə tarix və nəzəriyyə elmində musiqinin insan üzərinə mənəvi və fizioloji təsirinin mövcudluğu və onun tətbiqi.

**Tədqiqatın faktiki materialı:** Tədqiqat işində praktiki baxımdan tətbiq olunan və təcrübədən keçirilən nümunələr və orada icra olunan ünvanlar: İstanbul Texnik Universiteti, Antalya Doğa Koleji, Kasımpaşa Askeri Hastanesi, Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik Klinikası.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Eyni zamanda təqdim olunan iş musiqişünaslar və etnomusiqişünasların köməkçi ədəbiyyatına çevrilə bilər.

Dissertasiya işinin əsas müddəa və nəticələri musiqi və tibb yönümlü ali təhsil ocaqlarında tədris edilən müvafiq fənlərdə və metodik vəsaitlərdə tətbiq oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasının iclasında müzakirə edilmişdir. Tədqiqatın ayrı-ayrı müddəa və nəticələri müəllifin Azərbaycanda, eləcə də Türkiyədə keçirilən elmi konfrans və simpoziumlardakı çıxışlarında, elmi jurnal və toplularda çap olunmuş məqalə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, dörd fəsil, on bir bölmə, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı, saytoqrafiya və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli "Musiqi vasitəsilə ilə müalicəyə tarixi baxış"** adlanır və iki bölmədən ibarətdir.

**1.1. Şərqdə musiqi terapiya ənənələrinin yaranması və onun müalicəvi gücünün sınaqdan keçirilməsi** - musiqili səslərin və melodiyaların fizioloji və psixoloji təsirlərini müxtəlif ruhi pozuntulara görə təyin etməklə, nizamlı bir üsul şəklində aparılan müalicə musiqi vasitəsiylə müalicə deyilir. Musiqilə müalicənin tərifi mövzusundakı müzakirə elm dünyasında illərcə davam etdi. Bəzi ətraflar musiqilə müalicəni "alternativ" bir müalicə üsulu olaraq, bəziləri də yalnız bir "reabilitasiya" üsulu olaraq qəbul etmişdir. Tərifi edilərək musiqilə müalicənin bir alternativ müalicə üsulu olmadığı; ənənəvi tibbə uyğun, özünə xas qaydaları olan, elmi bir müalicə üsulu olduğu qeyd edilmişdir".[1]

Rəcəb Uslu'ya görə, Köhnə Misirə aid olən bir Papirüsta "vəba gətirən küləyə qarşı" bir "kantik / ilahi-mahnı" yazılmışdır. Yenə IX əsrə aid tibbi mövzulardan bəhs edən bir kopt papirüsündə bir dəri xəstəliyini müalicə üçün Cəbrayıl, Rafael və Oriel'e qarşı oxunacaq bir mahnıdan söz edilir. Bir Papirüste yazdığına görə köhnə Misiri idarə edən beşinci xanədanın kraliçası hamiləliyi zamanı çox xəstələnir, hamiləyə kömək və müalicə etmək üçün beş dişi tanrı beş musiqiçi qız geyimində gəlib mahnılarıyla kraliçanı müalicə edirlər.[2]

Böyük Çin filosofu Konfusi'un musiqi haqqında bəzi fikirləri var idi: Gökçe Çomakay'a görə; "... beləcə musiqi səslənən zaman, insanlar arası bağlantı yaranır, gözlər parlaq-qulaqlar iti olur. Qanın hərəkəti və dolanımı sakitləşir. Adətlər dəyişir və dünyada hər şey bir nizam içində olur. Musiqi, tonların bir səmərəsidir. Mənşəyi xarici faktorların beyinə

---

[1] ÇOBAN, Dr.Adnan; Müzikterapi, Timaş Yayınları, İstanbul 2005, 29-30 s.
[2] http://toplumdusmani.net/modules/makale; Recep USLU

olan təsiridir. Musiqi ahənglə bəzədilir, yaxşı ruhlara yönəlir.[3]

Çində musiqi və musiqi düşüncəsi dünya görüşünə bağlı bir fəlsəfə olaraq araşdırılmışdır. M.Ö. 3000lərə çatan Çin mədəniyyətində musiqi, ürəyin səsi və kainatın simvolu olaraq qəbul edilmişdir və "5" sayı onlar üçün çox əhəmiyyətlidir. İnsanda beş duyğu turş, acı, duzlu, yandırıcı, şirin olaraq sıralaya biləcəyimiz beş dad, həyatda beş rəng çox əhəmiyyətlidir. Musiqi də beş səs üzərinə qurulur. (pentatonika). Konfusiya görə musiqi səsləndiyi zaman şəxslər arası əlaqələr düzəlir, gözlər parlaq, qulaqlar iti olur, qanın hərəkəti və dolanımı sakitləşir. İmperator Sun (M. Ö 2255) Musiqi fəlsəfəsini qurmuş, musiqidəki hər şeyin bir mənası olduğunu söyləyərək əxlaq əsaslarına dayandırmışdır. Pan fleytasını (P'ey-Hsiao) və beş ipək telli aləti icad etmişdir.

Antik dövr insanı, kainatın sirrinə və bunun da ruhlar ya da fövqəltəbii güclər tərəfindən idarə olunduğuna inanırdı. Xəstəliyin səbəbi isə bədənə girən pis ruhların əsəri idi. Bu dövrdə cadugər isə həkim vəzifəsini boynuna götürmüş və rəqslər, tüstülər, şəfalı bitkilər və qarışıq ayinlərlə xəstənin bədəninə girdiyinə inandığı pis ruhu uzaqlaşdırmağa çalışmışdır. Musiqi burada, cadugər ilə pis ruh arasındakı ünsiyyətdir və bir tərəfdən də pis ruh idarə altına alınmaqdadır.

Xəstənin ruhi sağlamlığına yenidən qovuşa bilməsi üçün bu pis ruhun xəstədən çıxarılması düşünülmüşdür. Musiqilə müalicə ən köhnə müalicə üsullarından biri olub, bir çox qədim mədəniyyətlərdə istifadə edilmişdir. Bu mədəniyyətlərdən biri də “Qədim Yunanlılardır."[4]

Məşhur mütəfəkkir Platon (Əflatun M.Ö.400) isə, musiqinin müalicə edici xüsusiyyətini qəbul etməkdə, ahəng və ritm ilə ruhun dərinliklərinə təsir etdiyinə inanmaqdadır, ancaq musiqi olmadan xəstəyə tətbiq olunan Reseptlərin də heç bir faydasının olmadığı fikirini müdafiə etmişdir. Platonun şagirdi və Böyük İskəndərin müəllimi Aristotelə görə musiqi, birbaşa ruhi ehtirasları dilə gətirir. Narahatlığı, xoşbəxtliyi, ürəkliliyi sərgilər. Bədənin intizamı üçün necə bədən tərbiyəsi lazımlı isə, beyninin intizamı üçün də musiqi vacibdir.

Qədim dövrün həkimlərindən Askulap, karlığı müalicə etmək üçün trambondan bir vasitə kimi istifadə etməklə məşhurdur. Həm Cicero, həm də Celsus, musiqinin ruhi xəstələr üzərindəki yaxşı təsirindən bəhs edirlər.

---

[3] www.rehberlik.web.com/makale; Gökçe ÇOMAKAY.

[4] www.muzəkdersi.com, Dr.Haşmet Altınölçek, Tedavide Müzik ve Antik dönem Uygulaması, makale.

Daubrresse, xəstəliklərin müalicəsi üçün musiqidən istifadə fikrinin ilk dəfə Pifaqor ilə ortaya çıxdığını və böyük Yunanıstanda təcrübələrini tətbiq edən Caeleius Aurelianus (Libri, Balet 1529 et Paris, 1533) izah edir.[5]

Bu tarixdə musiqinin riyaziyyatla olan əlaqəsinin təyin olunması Pifaqor ilə musiqi anlayışında bir inqilabın olduğu görülə bilər. M.Ö.500-ci ildə Hermion'lu Lasos, səsin titrəşmələrdən meydana gəldiyini, pərdə yüksəkliyi, səs şiddəti və səs ölçülərinə sahib olduğunu aydın görürdü. Pifaqor fəlsəfəsinə görə, kainat, böyük bir harmoniya və say kökünə əsaslanır. Pifaqorçular, musiqidəki ahəngin təsirlərini də ədədə söykəndirməkdədirlər. Ayrıca bu sistem yerində istifadə edildiyi təqdirdə musiqinin insan sağlamlığına böyük köməyi olacağını qəbul etməkdə və bədənin təmizlənməsi üçün də musiqi eyni xüsusiyyət daşıyan bir vasitədir deyirlər.

M.Ö. 585-500 illəri arasında yaşayan böyük Yunan filosofu və riyaziyyatçısı Pifaqor, ilk və orta əsrlərin bütün nəzəriyyəçilərinin etdiyi kimi, səs titrəşimlərinin sayı, yüksək rezonanslar, səs intervalları və ortaq bir həll qurulmamış nəzəriyyələrlə əlaqədar şərhlər etmiş, ümidsizliyə düşən kəsləri və ya tez hirslənən xəstələri müəyyən melodiyalarla müalicə edə bilmək imkanını araşdırmışdır.

Tibbin atası sayılan Hippocrat da (M.Ö.460-377), 2400 il əvvəl bəzi xəstəlikləri müalicə üçün xəstələri ilahilərlə məbədə apardı.

Thaletasis Ispartada vəba xəstəliyini mahnılarla müalicə üçün "Huat, huat, ista, pista, sista, dominko, domnustra" deyə mahnı oxuyardı. Qan axdığı zaman Hemoraji (qanama) mahnıları deyilərək durdurulurdu.

Rahiblər bütün dini düsturları bildikləri kimi, ilahilərin bir ritimlə deyilməsi və sıranın diqqətlə təqib edilməsi lazım olduğuna da böyük əhəmiyyət vermişlər. Alvin'e görə, bu mahnılardakı hər hansı bir dəyişiklik tanrıya edilən böyük bir küfr sayılır və şiddətlə cəzalandırılırdı. Çünki bu, tanrıları narazılığa gətirər və cəmiyyətin təhlükəsizliyini təhdid edərdi. Buna görə rahiblər müqəddəs ayinlərə dair hər şeyi, bütün detalları ilə birlikdə öyrənmək zorundaydılar. Bunlara epidemiya xəstəliklərə qarşı istifadə edilən düsturlar da daxil idi.

**1.2. "Şamanlıq dövründə qədim Türklərin musiqisində müalicəvi üsullar"** adlanır. Səslərin müəyyən obrazı halında təşkil edilməsi, ibtidai qəbilə həyatının bir ayrılmaz hissəsi idi. ibtidai qəbilələr təbiəti cadu ayinləriylə də nəzarət altına almağa səy göstərdilər. Bu ayinlər şeiri, rəqsi

---

[5] DAUBRRESSE, M; Musıco-Therapie, çev. Abdullah Cevdet, Matbaa-i İçtihat, no.18, Mısır 1908

və musiqini, bədəni rəngləyərək və taxtadan oyulmuş maskalar istifadə edərək bir sıra hərəkətlər içərisində birləşdiridilər. Bunlarda "cadulu" olan, qəbilə mənsublarının təbiətdəki sirrli qüvvələri sözlər, bədən hərəkətləri ya da şəkillə təqlid edərək ya da simvola çevirərək yoxlama altına ala biləcəkləri inançlarıydı.

Fransız musiqişünası Jules Combarieu cadugarın bir seans anında, laboratoriyasında çalışan müasir bir elm adamı kimi inanclı və səmimi olduğundan bəhs edir. Cadugər, mahnılar və cadulu düsturlar olmadan müalicənin heç bir nəticə verməyəcəyi inancını daşıyır. [6] Qəbilə ayinlərində nizamlı musiqi səsinin bir-birləriylə bir tərəfdən zidd, bir tərəfdən də birləşən və bütün musiqi sənətini meydana gətirən iki xüsusiyyəti özünü göstərir: Səs yüksəkliyi (pərdə) və; Ölçü (ritm) dir.

Müalicə mərasimlərində musiqi, rəqs, ritm və mahnılar başlıca rol oynamış, xəstənin pis varlıq və ruhlardan xilas etmək müalicənin təməlini təşkil etmişdir. Səs, musiqi də bu gizli varlıqlarla xəbərləşmək üçün bir vasitə olaraq görülmüş, dərman, su və otlar isə xəstənin bədəninə girmiş olan bu pis varlıqlarla mübarizə üçün istifadə edilmişdir. Bunların ancaq sehrbaz, həkim tərəfindən rəqslər, mahnılar və tüstülərlə istifadə edildiyi zaman təsirli ola biləcəyinə inanılmışdır. Monoton bir ritm ilə birlikdə varlığın reaksiyasına görə sürətli, yavaş, yumşaq və ya sərt melodiya, razı salıcı sözlərlə dolu mahnı ilə musiqiyə müşayiət, musiqilə müalicənin təməlini təşkil etmişdir.

Şaman dininə mənsub olduğu çağlarda Şaman, Pirhon və Bahşılar mahnılar söyləmək və rəqs etmək surəti ilə xəstə müalicə seansları və mərasimləri icra edərdilər. Uyğur Türkləri qədim zamanlarda ölülərini mahnı oxuyaraq və rəqs edərək yola salardılar.

Azərbaycandakı musiqilə müalicənin tarixi keçmişində də əhəmiyyətli tapıntılar yer almaqda və Azərbaycan bu mövzuda xüsusi bir əhəmiyyət daşımaqdadır. Çünki daha əvvəlki yazdıqlarımızdan bəhs etdiyimiz kimi, xüsusilə Şamanik inanc çərçivəsində ayinlərin ən əhəmiyyətli vəsaitləri melodiya, ritm, rəqs və bu ayinlər zamanı istifadə edilən musiqi alətləri müqəddəs qəbul edilərmiş. Hətta musiqi müşayiətində icra edilən rəqslər ümumiyyətlə bəzi müqəddəs fiqurların təqlidi şəklində idi. Kazak və Qırğız Türklərində musiqi və rəqs ilə müalicə nümunəsi olaraq, çox köhnədən bəri davam edən bir rəqs olan "Karacorga", bir atın gedişini simvollaşdırır və inanca görə də bu fiqurlar Ata ruhunu təmsil etməkdə-

[6] COMBARIEU, Jules; La Musıque et La Magie, A.Picard-Fils, s.18,Paris 1909

dirlər. Azərbaycanla əlaqəsi budur ki, adı keçən at gedişini təməl alan və günümüzə qədər gəlib çıxmayıb müalicə rəqsi nümunəsi olan Karacorganın (bakşın rəqsi) bənzər nümunələrini Azərbaycan Qobustan qayalıqlarındakı fiqurlarda görə bilərik.Yəni tarixdəki musiqilə müalicənin ilk nümunələrinin indiki Azərbaycan sərhədlərində olduğunu yazılı mənbələrdən anlayırıq.

Musiqi də icra edilən rəqslər ümumiyyətlə bəzi müqəddəs fiqurların təqlidi şəklində olardı. Qazax və Qırğız türklərinə musiqi və rəqs ilə müalicə nümunəsi olaraq, çox köhnədən bəri davam edən bir rəqs olan "Karacorga", bir atın gedişini işarələməkdədir.

Adı çəkilən at gedişini əsas alan və günümüzə qədər gələn müalicə rəqsi nümunəsi olan Karacorganın (baxsın Dansı) bənzər nümunələrini Azərbaycan Qobustan qayalıqlarındakı fiqurlarda görürük.

Şamanizmdə musiqilə müalicə mövzusunda iki anlayışdan bəhs etmək olar:

a) Beşsəslilik anlayışı (pentatonik)

b) Baksı və Kamlar (Şamanlar)

a) **Beşsəslilik anlayışı**: Məşhur musiqi xadimi Adnan Saygun isə "beş səsli musiqi, Türk'ün musiqidəki damğası" deyərək bütün dünyaya orijinal bir həqiqəti elan etmişdir.

Beşsəsliyin Orta Asiya'dan dünyaya yayıldığı və bir çox yerdə davam etdiyi müşahidə edilməkdədir. Məsələn, Urfa, Ərzurum, Safranbolu kəndlərində; Konya, Cihanbeyli, Niğde və Eskişehir'də beşsəslilik ünsürünə rast gəlinməkdədir. Qazax-Qırğız, İdil-Ural, Krım-Yaqut, Qaraçay Türkləri musiqi əsərlərində yarım beşsəslilik öz əksini tapır.

b) Baskı və Kamlar (Şamanlar) Türklər "şaman" yerinə "kam" deyərmişlər. Kam, təbiət-üstü qüvvələrlə təmasa keçə bilən insandır.

Türk dininin ruhani başçısına "Toyo" adı verilərdi. Kahin (falçı) və cadugərlərə isə "kam" deyərdilər. "Şaman" sözü bu "cam" sözündən yaranmışdır. Orqan xəstəliklərini müalicə üçün, qədim türklərin "otacılar" ı və "atasagunlar" ı var idi. Ruh və sinir xəstəliklərini müalicə edənlər də Şamanlar'dı.

Türk dinində (Şamanîlikte) bir peyğəmbər və müqəddəs kitab olmadığı üçün (cam) şamanların bir çox vəzifələri və böyük mənəvi nüfuzları var idi.

"Baksı-Qırğız Türkləri" bir növü şamandır, şamanın yerini tutar və onun vəzifələrini icra edir. Qısaca müalicə edici bir həkimdir. Buna. "Baksı" ya da " Bahşı" da deyilir. Baksı'ların istifadə etdikləri alətlərdən

Kopuz (dutar, Dombra) pərdə bağlama baxımından beşsəslilik əsasını daşıyır. Kılkopuz, sıbızgı, koray bu məqsədlə istifadə edilən alətlərdir. İdil-Ural, Başqırd türklərinin musiqisində ən xarakterik şəkildə görülən beşsəslilik, Gobız və ya Şangobız deyilən alətdə dəqiq olaraq görülür. Bu alətlər, musiqi icrası və trans halı ilə xəstə müalicəsində çalışan Baksı'ların ən əhəmiyyətli alətləridir.

Əlinin altında saxladığı Kam'ın ən qiymətli varlığı olan davul (çaluu yaxud tüngür), onun etdiyi xəyali səyahətlər əsnasında, dənizləri keçərkən qayığı, dağları aşarkən meral, çölləri keçərkən dəvəsi halına bürünürdü.

Türk həkimlərin hekayəsi "Kam" adı verilən sehrbaz həkim ilə başlayır. Kam, göy ilə yer Tanrı və ruhları ilə birbaşa əlaqə quran ayinləri icra edən adam idi. Qırğız türklərində "Baksı", müalicə işini aparan bir həkimdir.

Şamanın müsəlman nümayəndəsi olan Baksı, Şamanizm ilə İslam dininin birlikdə olduğu bir anlayışı daşıyır. Kazak-Qırğız Baksıları, məsləklərinin Qorqud tərəfindən qurulduğuna və onun bütün Baksı'ları qoruduğuna inanır. İmtina edilməz ruhu gücünə sahib olan qopuz'un ilk dəfə Dədə Qorqud tərəfindən tapıldığına inanırlar.

Dədə Qorqud bir tərəfdən öyüd-nəsihət verir, bir tərəfdən dastan söyləyir, digər tərəfdən qopuz çalır, xəstə müalicə edir və müxtəlif mövzularda yaxşı nəticələr alınması üçün dua edərdi. Bütün bunlardan aydın olur ki, qədim Türklərdə musiqi və rəqslə müalicə sadə bir həkim işi deyil, sosial-mədəni və spritüel (ruhi) bir fenomendir. İbtidai Şamanizme, şaman ilə təbibi eyni şəxs olduğu qəbul edilir.

Nəticə olaraq Musiqinin müalicə sisteminin tarixi inkişafına baxdığımızda Şərqdə və Çində miladdan əvvəlki dövrlərdə başladığı, Qərbdə və Antik dövrdə inkişafını davam etdirdiyi, Şamanlık və primitiv cəmiyyət dövrlərində isə insanların o dövrdə dərhal hər mövzuya ruhların və fövqəltəbii güclərin varlığı inancı ilə yaxınlaşdığı və musiqinin müalicə gücünün, davam etməkdə olan həyat içərisində möhkəm bir yer əldə etdiyi görülməkdədir.

**Dissertasiyanın II fəsli "Orta əsr islam mədəniyyətində musiqinin insan sağlamlığına təsiri", üç bölmədən ibarətdir. 2.1. "Yaxın Şərq ölkələrində musiqinin insan sağlamlığına təsiri"** adlanır. Səfəvi dövrü musiqisiylə məşğul olan bəzi şərqşünas və tədqiqatçılar İsfahan'da musiqinin xəstəlikləri yaxşılaşdırılmasına dair istifadə yollarını və İsfahan musiqi məktəbinin, digər bir çox sənət sahəsi ilə qaynaşdığını söyləyirlər. İranlı tədqiqatçı Seyid Huseyn Rezevi Bergei'de, musiqilə

müalicə metodları üzərinə etdiyi işlərində, Səfəvi dövrü xüsusilə İsfahanın paytaxt olmasından sonra tibb və əczacılığın görülməmiş bir inkişaf yaşadığını və dövrünün ən əhəmiyyətli mərkəzlərindən biri halına gəldiyini söyləyir. Səfəvi dövründə xüsusilə İsfahan'da klassik tibb metodlarının yanında musiqilə müalicənin məşhurluq qazandığını, daha əvvəllər də İranlı İbn Sina, Razi və Cürcani kimi alimlər musiqinin müalicə metodu olaraq istifadə edilməsi mövzusunda risalələr qələmə aldığını ifadə edir.

O, musiqi elmini Farabinin əsərlərindən öyrənmişdir. Ondan öyrəndiyi musiqini birbaşa tibb elmi ilə birləşdirmiş və musiqini tibbin ən əhəmiyyətli şəfa vasitəsi kimi görmüşdür. İbn Sina, Farabinin əsərlərindən çox faydalandığını söyləmiş və musiqini də ondan öyrənərək tibb peşəsində tətbiqə qoyduğunu izah etmişdir. Ərəbcə yazdığı Kitab'ün Necat və Kitab'ün Şifadaki 12 fəsil tamamilə musiqiyə ayrılmışdır. Bu qisim Baron Rodolphe Deerianger tərəfindən Fransız dilində "La musique Ərəb" adı ilə nümayiş olunmuşdur.

Yaqub Əl Kindi (801-873) də məşhur İslam filosoflarındandır. Yalnız fəlsəfə mövzusunda deyil, fəlsəfənin xaricində, tibb, riyaziyyat, astronomiya, siyasət, musiqi və məntiq də olmaq üzrə on yeddi ayrı mövzuda əsər yazmış və musiqinin insana təsiri haqqında dəyərli fikirlər söyləmişdir .

Dr Grebenenin araşdırmalarına görə, M.S. 854-932 illəri arasında yaşamış olan Müsəlman Türk alimlərindən Əbu Bəkir Razi, melanxoliklərin məşğuliyyətlə müalicələri haqqında yazdığı bir əsərində əvvəl melanxoliyanı təyin, dedikdən sonra, məşğuliyyətlə müalicənin də necə tətbiq olunacağını da belə izah etmişdir

Musiqi öyrənməli, öyrətməli, xüsusilə gözəl səslə oxunan mahnılar dinləməlidirlər. Melanxolik xəstənin ancaq bu şəkildə çətinliklərindən, dərdlərindən xilas edilib yaxşılaşması imkanı təmin edilə bilər.

Əbu Nəsr Farabi (870-950) musiqinin insan bədəninə və ruhuna təsirlərini araşdıran ən məşhur mütəfəkkirlərdən biridir. Farabi, musiqi ilə də məşğul olub qanun, şeştar və ud çalmaqda usta idi. Musiqilə əlaqədar ən əhəmiyyətli əsəri, 'Musiqi-ul Kəbirdir. Bu əsərində musiqinin fizika və astronomiya ilə əlaqələrini izah etməyə çalışmışdır. Hətta istifadə edilən bir çox orqanın ulduzların təsirində olduğunu ifadə etmişdir. Ayrıca musiqinin insan psixologiyası üzərindəki təsirlərə də yer vermişdir.

İbn Sina (980-1037) Böyük İslam alimi və filosoflarındandır. Bir çox elmi mövzunun yanında musiqinin insan bədəninə olan təsirini də araşdırmış və müalicənin təsiri üçün, musiqidə tibbdə oynadığı rolu belə təyin

etmişdir. İbn Sina, musiqi funksiyalarının insanların ruh hallarındakı eniş çıxışları təmsil etdiyini təsbit etmişdir. Ona görə musiqi bizə xoş göstərən eşitmə gücümüz deyil, o bəstələri müxtəlif təlqinlər çıxaran idrak qabiliyyətimizdir. Yəni musiqinin bizdə oyandırdığı duyğulardır.

Safiyüddin Abdülmümin Urmevi (12017-1294) Türk dünyasının musiqi elmində ən böyük simalarından biridir. Türk musiqisinin səs sistemini elmi təmələ yerləşdirən şəxs olaraq Santur, Nüzhə, və Muğni kimi alətləri icad etmişdir. O günün müəyyən vaxtlarında təsadüfi orqanların icra edilməyəcəyini, bu vaxtlarda müəyyən məqamların icra edilməsinin insan ruhunu dinləndirəcəyini, insanı dincliyə qovuşduracağını təsnifat şəklində ifadə etmişdir.

Grebene'nin araşdırmalarında görürük ki, Farabi "Kitabu'l-musiqi-ul Kəbir" adlı əsərində daha çox musiqinin riyaziyyatı və səs fizikası ilə əlaqədar məlumatlar versə də, musiqidə insan psixologiyası üzərindəki təsirlərinə də yer vermiş və musiqidə müalicə edici xüsusiyyətinə işarə etmişdir.

**2.2. "Osmanlı Dönəmində Musiqinin İnsan Sağlığına təsiri" -** Osmanlı dönəminə gəldikdə Tabib Şuuri Həsən Əfəndi: qeyd edir ki, insan ruhu vəziyyətini günün hər saatında eyni formasını qoruya bilməz. Bundan başqa bəzi xarici təsirlərin də insan ruhu üzərində müsbət və mənfi təsirlərinin olduğu inkar edilə bilməyən bir gerçəkdir. Bu həqiqətən də çıxış edərək Osmanlı Şair həkimlərindən Tabib Şüuri, günün müəyyən vaxtlarında təsadüfi məqamların icra edilə bilməyəcəyini və bu vaxtlarda müəyyən məqamların icra edilməsinin insan ruhunu istirahət etdirəcəyi və insanı hüzura qovuşduracağı fikirini müdafiə etmişdir.

Güvenç'e görə, məşhur Türk həkimlərindən Şüuri, Ta'dilü'l Emcize adlı əsərində musiqi ilə müalicə mövzusunda geniş məlumat vermiş, məqamların günün hansı saatında daha çox təsirli olacağından bəhs etmişdir ... Bundan başqa bu əsərində musiqi üsullarını bilməyən bir həkimin, diaqnoz və müalicələrdə müvəffəqiyyətli ola bilməyəcəyi iddiasını gətirmişdir.[7]

Osmanlı şair həkimlərindən 1693-ci ildə öldüyü bilinən Təbib Şüuri Hasan Efendi, "T'adil-ül Emzice" adlı əsərində musiqinin tibblə olan marağını belə izah edir: O qeyd edir ki, musiqi elminin, digər elmlərdə olduğu kimi tibb elmi ilə də əlaqəsi olduğu aşkardır. Nəbzin vuruşları məqamların usullarına görədir. Ritm hərəkətlərinin hər biri bir məqama və

---

[7] GÜVENÇ, Rahmi Oruç; Türklerde ve Dünyada Müzikle Ruhi Tedavinin Tarihçesi ve Günümüzdeki Durumu, Doktora Tezi, İstanbul 1985, 68 s

nəğmələrə uyğun gəlməkdədir. Nəbzin hərəkəti məqam üsuluna (ritminə) zidd olsa, bu, xeyirli bir sayıla bilməz. Nəbz hərəkəti üsulundan xəbəri olmayan həkimlikdə yetkin və sənətində bacarıqsız xəstəlikləri tanımada gücsüzdür.

Hekimbaşı Gevrekzade Həsən Əfəndi: Türk həkimlər qorxu, həyəcan, şübhə və ruhi böhran keçirənlərin nəbz atışlarındaki dəyişmə və bunun meydana gətirdiyi ruhi narahatlıq üzərində dayanır, xəstələrə müxtəlif melodiyaları dinlədir və bu vaxt nəbz atışlarını da nəzarət edərək, xəstəyə uyğun olan musiqini tapır və eyni xəstəliyi olanları bir araya gətirərək, tapdıqları uyğun mahnılarla müalicə edərdilər. Yəni bir növ qrup müalicəsi edilərdi. Ruhi xəstələrinin xoşlandıqları mahnılar qədər bəyəndikləri musiqi alətləri də göz önünə alınaraq xəstələrə və xəstəliklərinə görə müxtəlif musiqi alətləri istifadə edərdilər.

XVIII əsrin əvvəllərində yaşamış olan Hekimbaşı Gevrekzade Həsən Əfəndinin "Neticetü'l Fikiriyə, Tədbir-i Veladet-ül Bikriyye, və Risalətü'l Musıkiyye” adlı əsərlərində bu mövzu ilə əlaqədar çox dəyərli məlumatlar vardır. Hekimbaşı, Gevrekzade Həsən Əfəndi "Emraz-ı Ruhaniyeyi Negama-ı Mu-sikiye" adlı əsərində, uşaq xəstəliklərinə hansı məqamın yaxşı təsir etdiyini də demişdir.

XV əsrdə yaşayan qiymətli elm adamlarından və musiqi nəzəriyyəçilərindən biri olan Şirvani, əslən Azərbaycanlı olub, zamanındakı məşhur alimlərdən dərs almış, dini və texniki elmlərdə yüksək nəaliyyətlər qazanmışdır.

Fəthullah Şirvani, "Mecelletun fi'ı-Musika" adlı əsərində Türk musiqisini istifadə edilən bəzi ladların, insan duyğuları üzərindəki təsirlərinə aid şərhlərdə belə deyilir: orqanların bir qismi, insanda qüvvət, cəsarət və tam bir rahatlıq təsiri edir ki, Uşşak, Neva və Ebuselik (Buselik) bu sıradadır. Mahur və Nihavend'in təsiri də bu orqanlar kimidir. Bəzi orqanlar da, insan duyğularında mötədil dərəcədə bir rahatlıq və xoş bir ləzzət təsir edir. Bunlar Rast, İraq və İsfahan məqamlarıdır. Isfahan isə xüsusilə mədəni insanlara uyğun düşməkdədir. Rehavi pərdəsinə Ağlama pərdəsi, Zirefkend'e Hüzn pərdəsi, Büzürg'e Qorxaqlıq pərdəsi, İsfahana Comərdlik pərdəsi, İraqa Ləzzət pərdəsi, Uşşak'a Gülmə pərdəsi, Zengüle'ye Yuxu pərdəsi, Neva'ya Cəsarət pərdəsi, Ebuselik'e Qüvvət pərdəsi, Huseyniyə Sülh pərdəsi, Hicazi'ye Təvazökarlıq pərdəsi adını vermişdir.

Mevlana Celaleddin-i Rumi (1207-1273) Mevleviliyin qurucusu və məşhur bir İslam mütəfəkkiridir. Musiqinin insan ruhu üzərindəki psixoloji təsirlərini ən yaxşı şəkildə dilə gətirən və bunun ən güclü şərhini edən kəslərin başında durur. Mövlana həyatı boyunca elm yolunu seçmiş,

cəhalətlə döyüşmüşdür. Mevlevi ayinləri əsnasında edilən səmada isə musiqinin və rəqsin insan ruhuna necə müsbət bir şəkildə təsir etdiyini görürük. Mevlevilerin çaldığı ney, rebap, çəng, kudüm, halile kimi müəyyən çalğı alətləri Orta Asiya mənşəlidir. Sufilər ruh xəstəliklərinin müalicəsində musiqi ilə müalicəni sınamışlar. Təsəvvüf deyilincə ağla ilk gələnlərdən biri Təsəvvüf musiqisidir. Ancaq Təsəvvüf Musiqisi Rəbbani sevginin qəlbə çatmasında istifadə edilən əsas üsullardan biri olduğu üçün də olduqca əhəmiyyətlidir.

Ərzurumlu İbrahim Haqqı, Osmanlı türklərinin ən əhəmiyyətli din alimlərindən biri, "Marifətnamə" müəllifi olan böyük mutəsəvvüfdür. İbrahim Haqqı Əfəndi, musiqidə səsləri, pərdələri və nəğmələri ayıraraq felek dediyi 24 hissəyə ayırmış və buna musiqi fənni demişdir. O da digər qədim Türk-İslam alimləri kimi musiqi məqamlarının bir çox dərdə və mərəz xəstəliklərə şəfa olduğu kimi ruhi pozuqluqlara da musiqi yolu ilə dərman olunacağını söyləmişdir.

**2.3. "Qədim musiqi nümunələri əsasında muğamın insan sağlamlığı müalicəvi təsiri"** adlanır. Burada musiqi nümunələrinin nəzəri təhlili əsasında məqam və musiqi əlaqəsinin insan sağlamlığına təsiri bu muğamlarda öz əksini tapır: Nihavend, Rast, Rehavi, Hüseyni, Hicaz, Pentatonik melodiyalar, Acemaşiran, Üşşak, Segah, Saba, Büselik, İsfahan, Neva, İraq, Büzürk, Zirifkend, Zengüle.

Nəticə olaraq Orta əsrlərdə və İslam mədəniyyətində musiqidə insan sağlamlığına təsirinin əhəmiyyəti daha da aydın, çox məşhur elm adamları və alimlər bu mövzuda araşdırma aparmış yazılı olaraq nəticələrini və fikirlərini bəyan etmişlər, məqam və sağlamlıq əlaqəsinin üzərində dayanmışlar, çox dəyişik alətlərin səs və tonu xüsusiyyətləri səbəbiylə insan sağlamlığının üzərindəki müsbət təsirlərindən bəhs etmişlər.

**III fəsil "Insan səsi və musiqi alətlərinin müalicə edici xüsusiyyətləri"** adlanır və iki bölmədən ibarətdir. **3.1.Musiqinin səs olaraq insana fizioloji təsiri** - insani insan kimi hərəkət etdirən xüsusiyyətlərdən bəlkə də ən qabaqda gələni səsdir və ruhi quruluşumuzu çölə əks etməsində ən böyük vasitədir. Səs ilə hər cür duyğumuzu ifadə edərkən, səsi istədiyimiz rəngə bürüyüp, bu duyğularımızı daha da təsirli bir hala gətirə bilər. Səs hadisələrini akustik olaraq araşdırılmasında musiqi sənəti ilə bağlı olduğu ortaya çıxır. Vokal sənəti akustik və insan səsi üzərində dayanmaqdadır. Olduqları ölkənin ictimai, mədəni iqtisadi və iqlim quruluşu insan səsinin xüsusiyyətini təşkil edən ən əhəmiyyətli faktorlardır. İrq və

din inancları insan səsi xüsusiyyətləri baxımından çox böyük əhəmiyyət daşımaqdadır.

Tarix inkişaf etdikcə musiqiçi, şair və psixiatrlar insan səsləri və təsirləri üzərində dayanmışlar, xəstə kəslərin səslərində onların psixoloji pozuqluqlarını göstərən bəzi dəyişikliklər olduğunu irəli sürmüşlər. Köhnə həkimlər üçün isə xırıltı, inilti, öskürək kimi şeylər bu xəstəliklərin siqnalları sayılmışdır. İnsan səsi istər çıxış olsun, istər musiqi ifadə etdiyi mahnıda olsun əslində bəzi əzələləri fiziki və fizioloji çalışması nəticəsində yaranır.

İnsanlar yaranışlarının ən başından bəri, hər cür narahatlıqların yaxşılaşdırılması üçün çarələr axtarmışlar və müxtəlif müalicə üsulları tapmışlar. Səs müalicəsi də ən köhnə müalicə üsullarından biri olub, bir çox köhnə çağ mədəniyyətlərində istifadə edilmişdir.

Cəmiyyətdə ninni, ağı mahnısı olaraq; ovlanma döyüş, əkinçilik, gənclərin yetkinlik çağına qəbul mərasimlərində, xəstə müalicəsində, ölü basdırma mərasimlərinin hər birinin ayrı bir səs ritualı meydana gəlmişdir. Güc qazanmaq, xəstə ofsunlama, doğum, müvəffəqiyyət qeyd etmə mərasimlərində sıx istifadə edilmişdir.

Dünyamızdakı hər bir səsin özünə həzz xüsusiyyətləri vardır və bədənlərimizə, zehinlərimizə və ruhlarımıza müsbət ya da mənfi şəkildə təsir edə bilərlər və üstəlik çox halda bu təsirin fərqində deyilik

Səs ilə müalicə üsullarından biri olan titrəşmələrin bədən, zehin, ruh bütövlüyünə daxil edilməsi bu günlərdə yalnız musiqi dinləmək ilə məhdud deyil. Xüsusilə son iyirmi ildir ki, bir çox fərqli üsul inkişaf etdirilmişdir və bu üsulların hamısı, insanın molekulyar səviyyədən fiziki bədənimizi əhatə edən bioenerji sahələrinə qədər tezliklərdə (titrəşmə sayından) meydana gəldiyi təməlinə söykənməkdədir.

Musiqi alətlərdən biri olan insan səsinin yaxşılaşdırma məqsədilə şüurlu istifadəsi əsas dörd hissədən ibarətdir: Təbii səslərin ortaya çıxışı, şkalası, ilahilər və harmonik səslər. Bu dörd vəziyyətdə də səs telləri yaxşıca daraldılmış və təkrarlardan ibarətdir ki, bu da yerləşdirilməsinə və daha dərinləşən bir müddətinə icazə verir. Bu yeni bir fikir olmasa da 1970-ci illərdə Qərb dünyasında yenidən maraq görməyə başlamışdır. Halbuki Şərqin dini və fəlsəfi ənənələri əsrlərdir ki, səsin qabaqlayıcı bir alət olaraq gücünün daha yüksək bir şüur vəziyyətinə çatmaq istəyənlər üçün bir yol olduğunun da fərqindədir.

Amerikalı terapevti John Beaulieu, təbii elementlərin əskikliyi ya da çoxluğu üzündən ortaya çıxan xəstəlikləri diaqnoz edə bilmək üçün "Səs

Enerjesi" deyilən (məsələn bu analiz bioakustik və ya titrəşimli təhsil deyə bilinən səs müalicəsində diaqnoz üçün) bir texniki inkişaf etdirmişdir. Bənzər bir şəkildə XX əsrin əvvəllərində Təsəvvüfü Qərbə tanıdan Hind musiqisi ustadı Həzrət İnayət Xan, insan səsinin üç əsas növünün xüsusiyyətləri və elementli xüsusiyyətləri haqqında yazılar yazmışdır: Biri gücün göstəricisidir (Cəlal), digəri gözəlliyin (Camal), üçüncüsü də müdrikliyin (Kamal).

Elm adamları, bədənin musiqiyə verdiyi fiziki cavabları araşdırmış və musiqinin hər şərt və mühitdə bəzi mexanizmləri hərəkətə keçirdiyini təsbit etmişlər. Bununla birlikdə fərqli musiqi növlərinə fərqli cavabların meydana gələ biləcəyini də kəşf etmişlər. Buna görə musiqiyə verilən fiziki cavab üçün bu, adamdan adama dəyişir deyə bilərik. Hətta bir musiqi əsərinin eyni adam üzərində fərqli zamanlarda, fərqli təsirlərə səbəb olduğu da elmi bir tesbitdir. Yəni musiqinin meydana gətirdiyi fiziki reaksiya, ekoloji faktorlar, adamın duyğu vəziyyəti, zaman, məkan kimi anlayışlardan təsirlənə bilər və buna bağlı olaraq dəyişikliklər göstərə bilər.

**3.2. “Müxtəlif musiqi alətlərinin müalicə edici xüsusiyyəti” -** Tarix ərzində musiqi alətlərinin cadulu gücünə inanılmış və bu alətlərin cadugər həkimlər tərəfindən edilən ayinlərdə bir güc simvolu olaraq istifadə edildiyi görülmüşdür. Bəzi xəstəlikləri müalicə məqsədli olaraq, müxtəlif musiqi alətlərindən istifadə edilmişdir. Bunlardan bəziləri davul və bir növ harptır, xüsusilə Afrikalı cadugər həkimlər tərəfindən istifadə edilmişdir.

Çobanoğlu'na görə qədim Yunan mifologiyasında gözəl lira çalmasıyla tanınan Apollon həm musiqinin, həm də həkimliyin tanrısı sayılardı.

Qədim Yunan və Romanın yanında, qədim Çin və Misirdə də musiqinin, alətlərin təsirlərinə bağlı nümunələr vardır.

O zamanki inanclarda müalicəni təmin edən sehrli qüvvənin yalnız mahnılarla deyil, musiqi alətlərinin edildiyi maddələrə görə də təsirli bir vəziyyətə gəldiyini görürük.

Grebeneye görə, Della Porta adlı bir həkim bu mövzuya qətiliklə inanır və fikirlərini 1586-ci ildə yazılan 4. kitabında təyin etmişdir. Della Porta "..... əgər xəstəlik üçün o xəstəliyə qarşı istifadə edilən dərmanın ağacından bir musiqi aləti emal edilsə, heç bir xəstəliyin qalmayacağını ......" böyük bir ciddiliklə müdafiə etmişdir.

